# Şəmkir və Tovuz rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Şəmkir və Tovuz rayonlarının əhalisi 105153 nəfər olan 17 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 20 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 iyul 2021-ci il

Şəmkir və Tovuz rayonlarında qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

Azərbaycan Respublikası Prezidentinin
2021-ci il 7 iyul tarixli Sərəncamına
Əlavə

| Sıra №-si | Rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Şəmkir | 10 | Düyərli kəndi (2 quyu) | 9502 |
| | | | İrmaşlı kəndi | 5216 |
| | | | Könüllü kəndi | 5073 |
| | | | Sarıtəpə kəndi | 2289 |
| | | | Yeni Həyat kəndi | 4340 |
| | | | Yeni yol kəndi | 1625 |
| | | | Zəyəm qəsəbəsi (3 quyu) | 8749 |
| 2. | Tovuz | 10 | Alakol kəndi | 4265 |
| | | | Aşağı Quşçu kəndi | 11340 |
| | | | Bozalqanlı kəndi | 4593 |
| | | | Cəlilli kəndi | 2212 |
| | | | Dondar Quşçu kəndi | 4356 |
| | | | Düz Qırıqlı kəndi | 7190 |
| | | | Əyyublu kəndi | 12327 |
| | | | İbrahimhacılı kəndi | 4527 |
| | | | Köhnəqala kəndi | 2079 |
| | | | Qovlar şəhəri | 15470 |
| **Cəmi:** | | **20** | **17** | **105 153** |